

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 219 (21.120)

*18 noyabr 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri, iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Sultan Bin Səid Əl Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazir Sultan Bin Səid Əl Mansuri ölkələrimiz arasında iqtisadi, siyasi, investisiya qoyuluşu, birgə əməkdaşlıq sahələrində və digər sahələrdə münasibətlərin inkişaf etdirilməsinin regional əlaqələrin genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Dövlətimizin başçısı İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərində böyük inkişafa nail olunduğunu məmnunluqla qeyd etdi. Ölkəmizdə yeni inkişaf layihələrinin uğurla icra olunduğunu vurğulayan Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri, iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Sultan Bin Səid Əl Mansurinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizdə həyata keçirilən investisiya layihələri ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi.

Görüşdə Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlığın iqtisadiyyatın müxtəlif sahələrində inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

## Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr vermişdir. Burada böyük dövlətçilik ənənələrinin əsası qoyulmuş, X əsrdə "Naxçıvan şahlığı", XII əsrdə Azərbaycan Atabəylər dövləti yaranmış, XVIII - XIX əsrlərdə "Naxçıvan xanlığı", XX əsrin əvvəlində Araz-Türk Respublikası fəaliyyət göstərmişdir. Azərbaycanın bu tarixi ərazisində formalaşan ən qiymətli sərvətlərdən biri də Naxçıvanın muxtariyyətidir. Naxçıvan Muxtar Respublikasının yarandığı dövrdən ötən 90 il ərzində dövlətçilik ənənələri daha da möhkəmlənmiş, muxtar respublika özünün atributlarına malik olmuşdur.

Naxçıvan Muxtar Respublikasının 1924-cü ildə qəbul edilmiş Əsasnaməsində, eləcə də 1926-cı, 1937-ci və 1978-ci illərdə qəbul edilmiş konstitusiyalarında dövlət bayrağı haqqında müddəalar öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyasında isə Naxçıvan muxtar dövlətinin rəmzlərinin Azərbaycan Respublikasının Dövlət Bayrağı, gerbi və Dövlət Himni olduğu təsbit edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə qəbul edilmiş üçrəngli dövlət bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir. Azərbaycan dövlətçiliyinin bərpası istiqamətində taleyüklü məsələlərin müzakirə edildiyi həmin sessiyada "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərar qəbul olunmuşdur.

Azərbaycanın tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağının rəsmi olaraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qəbul olunmasını və bu günün dövlətçilik tariximizdəki əhəmiyyətini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndinə əsasən **qərara alıram:**

1. Hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı günü kimi qeyd edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2014-cü il*

## Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılmışdır





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncamına əsasən, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılmışdır.

Noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilmişdir.

Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin istifadəyə verilməsini əlamətdar və tarixi hadisə kimi dəyərləndirmiş, bu münasibətlə tədbir iştirakçılarını, ümumilikdə, muxtar respublika əhalisini təbrik edərək demişdir: "Bayraq müstəqilliyin və dövlətçiliyin atributudur. Bütün tarix boyu xalqların və dövlətlərin simvolu olan bayraq daim uca tutulub, müqəddəs bilinibdir. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Böyük dövlət xadiminin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi Qərarda deyilirdi:



"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

*1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2. Naxçıvan Muxtar Respublikasının digər Dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin".*

Bu qərar hələ Sovetlər Birliyinin mövcud olduğu dövrdə qəbul olunmuşdu. Belə bir dövrdə ümummilli liderimizin siyasi iradəsi sayəsində Naxçıvan Ali Məclisində qaldırılan dövlət bayrağı xalqın müstəqilliyi naminə sonsuz fədakarlığın, qətiyyətin və böyük siyasi iradənin ifadəsi idi. Ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli qərarının taleyüklü əhəmiyyətini qeyd edərək demişdir: ***"Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda dövlət bayrağı kimi təsdiq edildi... Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır.***

*Ardı 2-ci səhifədə*



***Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir”.***

Ali Məclisin Sədri diqqətə çatdırmışdır ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Onun bir kökü də tarixdən qaynaqlanır. Naxçıvanın qədim tarixi var. Burada möhtəşəm mədəniyyət nümunələri və beş min illik tarixə malik şəhər mədəniyyəti formalaşmışdır. Bu ərazidə təkcə zəngin mədəni dəyərlərin yox, eyni zamanda böyük dövlətçilik ənənələrinin də əsası qoyulmuş, onuncu əsrdə “Naxçıvan şahlığı”, on ikinci əsrdə isə Azərbaycan Atabəylər dövləti yaranmışdır. Onsəkkizinci əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına öz töhfəsini vermişdir. İyirminci əsrin əvvəllərində 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmlənməsində və tarixi ərazisinin qorunmasında mühüm xidmətlər göstərmişdir.

Ali Məclisin Sədri demişdir: “Naxçıvanın ən qiymətli sərvətlərindən biri də Naxçıvanın muxtariyyətidir. Azərbaycanın bu tarixi ərazisində yaranmış qədim dövlətlər kimi, Naxçıvan Muxtar Respublikası da özünün dövlətçilik atributlarına malik olmuşdur. 1924-cü ildə qəbul edilmiş “Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə”də, Naxçıvan Muxtar Respublikasının 1926-cı, 1937-ci və 1978-ci il konstitusiyalarında muxtariyyətin gerbi və dövlət bayrağı haqqında müddəalar öz əksini tapmış, onların təsvirləri verilmişdir. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı və gerbi ilə yanaşı, Dövlət Himni də təsbit edilmişdir. Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır”.

Ali Məclisin Sədri demişdir: “Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət edən hər bir insan, hər bir gənc dövlət rəmzlərinin tariximizdəki yeri barədə məlumatlandırılmalı, dövlət atributlarının mahiyyəti və əhəmiyyəti geniş təbliğ olunmalı, ümummilli liderimiz Heydər Əliyevin səyi ilə üçrəngli bayrağımızın ilk dəfə dövlət bayrağı kimi qaldırıldığı gün – noyabrın 17-si hər il Naxçıvan Muxtar Respublikasında əlamətdar tarixi gün kimi qeyd edilməlidir”.

Ali Məclisin Sədri bir daha tədbir iştirakçılarını Dövlət Bayrağı Meydanı və Muzeyinin açılışı münasibətilə təbrik etmiş, çıxışını ulu öndər Heydər Əliyevin müdrik kəlamları ilə tamamlamışdır: ***“Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir”.***

Heydər Əliyev adına Hərbi Liseyin kursantı Sənan Quliyev Rövşən Hüseynovun “Üçrəngli bayrağım” şerini bədii qiraət etmişdir:

Göylərdən almısan mavi rəngini,
Təbiət bəxş edib öz çələngini.
Döyüşdə çalmısan zəfər cəngini,
Qalxıb ucalmısan Vətənlə qoşa,
Üçrəngli bayrağım, yaşa, min yaşa!

Xalqımın sevgisi, məhəbbətisən,
Yurdumun vüqarı, əzəmətisən,
Sən ulu Heydərin əmanətisən –
Qalxıb ucalmısan Vətənlə qoşa,
Üçrəngli bayrağım, yaşa, min yaşa!

Sən qan yaddaşımsan, mənim elimsən,
Neçə yad ölkədə ötən dilimsən,
Ən uca zirvəyə çatan əlimsən,
Qalxıb ucalmısan Vətənlə qoşa,
Üçrəngli bayrağım, yaşa, min yaşa!

Sinəndə parlayır, ayın, ulduzun,
Səninlə fəxr edir hər oğlun, qızın.
Yurdunda gül açıb ən böyük arzun,
Qalxıb ucalmısan Vətənlə qoşa,
Üçrəngli bayrağım, yaşa, min yaşa!

Heydər Əliyev adına Hərbi Liseyin kursantı Sənan Quliyev, Gənc Heydərçi, Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi Mirqabil Əkbərov, Heydər Əliyev adına tam orta məktəbin X sinif şagirdi Gülənbər İbrahimova, gənc dövlət qulluqçusu, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məsləhətçisi Gülər Əhmədova və Heydər Əliyev təqaüdçüsü, Naxçıvan Dövlət Universitetinin “hüquqşünaslıq” ixtisası üzrə IV kurs tələbəsi Mətin Quluzadə dövlət bayrağını yüksəltmək üçün qoyulmuş qurğunu işə salmışlar. Xüsusi qurğu alqış sədaları altında dövlət bayrağını səmaya – əbədi yüksəliş nöqtəsinə qaldırmışdır.

Dövlət Himni səsləndirilmişdir.

Sonra Ali Məclisin Sədri dövlət bayrağını qaldıran gənclərlə xatirə şəkli çəkdirmiş, Dövlət Bayrağı Muzeyinin açılışını etmiş, muzey binasında və bayraq meydanında yaradılan şəraitlə tanış olmuşdur.



Bildirilmişdir ki, meydanın mərkəzində inşa olunmuş bayraq dirəyinin hündürlüyü 57 metrdir. Burada dalğalanan üçrəngli bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Bayraq dirəyinin pyedestalının altında unikal quruluşa malik Bayraq Muzeyi yaradılmışdır. Səkkizguşəli ulduz formasında inşa olunan muzey binası eyni quruluşa malik sütunlarla əhatə olunmuşdur.

Bayraq Muzeyi dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri muzeyin ekspozisiyasında yerləşdirilmişdir.

Ali Məclisin Sədri Azərbaycan Respublikasının Dövlət Himninin mətninin və dövlət gerbinin təsvir olunduğu xatirə hədiyyələrini muzeyə təqdim etmişdir.

Ərazidə meydana xüsusi gözəllik bəxş edən terraslar yaradılmış, dekorativ ağaclar əkilmiş, müasir işıqlandırma sistemi qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvandan başlanan milli dirçəliş

*“Azadlıq, müstəqillik bütün xalqlar, millətlər üçün ən şirin nemətdir. Biz azadlığımız, müstəqilliyimiz üçün illərlə mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur”.*



Bu fikirlər Naxçıvan Özəl Universitetində 17 Noyabr – Milli Dirçəliş Günü münasibətilə keçirilmiş elmi-praktik konfransda ifadə edilib.

Konfrans başlamazdan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli konfransı açaraq xalqın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri olan milli dirçəlişin Azərbaycanın müstəqilliyinin bərpa olunmasında tarixi rol oynadığını diqqətə çatdırıb.

Konfransda universitetin Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov “Milli dövlətçiliyə gedən yolun ilkin mərhələsi”, həmin kafedranın müəllimi, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov “Milli azadlıq hərəkatının Naxçıvan dövrü” və “informatika müəllimliyi” ixtisasının II kurs tələbəsi Gülay Əliyeva “Milli dirçəlişdən qüdrətli dövlətçiliyə doğru” adlı məruzələrlə çıxış ediblər.

Məruzələrdə vurğulanıb ki, 17 noyabr 1990-cı ildə ulu öndərin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I sessiyası keçirilib, həmin sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə olunub. Həmin müzakirələr zamanı “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında” və “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” qərarlar qəbul edilib.

Bildirilib ki, Naxçıvan 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlandırılıb. Qəbul olunmuş “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında” Qərardan sonra isə bu qədim yurdun adından “Sovet”, “Sosialist” sözləri əbədi olaraq çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırıldı. SSRİ kimi imperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından “Sovet”, “Sosialist” sözlərinin çıxarılması çox böyük cəsarət tələb edirdi. Bununla ümummilli liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addımını atdı.

Konfransda tələbələrin ifasında şeirlər səsləndirilib və şən və hazırcavablar klubunun ifasında bir-birindən maraqlı səhnəciklər təqdim edilib.

**Nuray ƏSGƏROVA**

*Müasir dünya nə qədər inkişaf edirsə etsin, əgər bu inkişafın təməlində gələcək üçün faydalı sərmayə yoxdursa, o zaman bu inkişaf yalnız konyuktura xarakteri daşıyacaq. Yəni xüsusi nəyəsə hesablanmış maraq və ambisiyalar toplusundan o tərəfə keçməyəcək. Ayrılıqda götürsək, ölkələr, regionlar da belədir. Təcrübə göstərir ki, yalnız cəmiyyətin sağlam gələcəyinə, ümumilikdə isə insan kapitalına sərf edilən dəyərli işlər ölkələrin gələcək inkişafının qarantına çevrilib.*

# Naxçıvanın intibah dövrünün yaşıl səhifələri



Ötən əsrin sonlarından başlayaraq muxtar respublikanın blokadaya salınması nəticəsində buradakı bütün sahələrin iflic vəziyyətinə düşməsini bu gün kiməsə sübut etməyə ehtiyac yoxdur. Bəziləri bunu siyasi, hərbi, iqtisadi, nə bilim daha nə kimi blokada adlandırsa da, məncə, blokada, elə blokadadır. Blokada bütün imkanların tükəndiyi, sonu məhv olmağa doğru gedən hər hansı ərazinin “blok olması”dır, yəni ətraf aləmdən təcrid olunmasıdır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarının da artıq 24 ildən çoxdur ki, qismətinə belə bir vəziyyətdə mübarizə aparmaq, özünü inkişaf etdirmək “yazılıb”. Ancaq eyni zamanda Naxçıvan belə bir blokada vəziyyətində hərtərəfli inkişafın əlifbasının yazıldığı bir diyardır. Elə bu yazıda da “Naxçıvan möcüzəsi” adlı bu əlifbanın ən savablı səhifələrindən birini oxumağa çalışacağıq. Söhbət gələcəyimizə qoyulan ekoloji sərmayədən gedir.

Əvvəlcə onu qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətinə salınmasından sonra ən böyük çətinlik regionun enerji təhlükəsizliyi ilə bağlı idi. Mavi qaz infrastrukturunun iflic olduğu, elektrik enerjisinin isə qonşu ölkələrdən idxal hesabına təmin edilməyə çalışılan regionda soyuq qış fəsillərində istiliklə bağlı ortaya çıxan problemlər, nəticədə, ağacların kütləvi şəkildə kəsilməsinə gətirib çıxarmışdı. Kəskin kontinental iqlimə malik regionun onsuz da az örtüyə malik yaşıllıqlarının sahəsi getdikcə azalaraq muxtar respublika ərazisinin 0,6 faizinə bərabər olmuşdu. Təbii ki, ümumi yaşıllıq ərazilərinin 1 faizə belə çatmaması ilə yanaşı, təkcə ağacların deyil, dağlıq ərazilərdə müxtəlif kol-ağacların belə məhv edilməsinə səbəb olmuşdu. Lakin illər bir-birini əvəz etdikcə çətinliklər də geridə qalmış, düşmənə baş əyməyən Naxçıvan öz varlığını qoruduğu kimi, yaşıllıqlarını da bərpa edərək qorumuş, həcmini dəfələrlə artırmışdır. Söhbət qeyd olunan dövrlə müqayisədə ümumi yaşıllıq sahələrinin 10 faizdən də çox artırılmasından gedir. İlk baxışda 10 faiz, bəlkə də, bir çoxlarına o qədər də böyük rəqəm kimi görünməyə bilər. Yaddan çıxarmayaq ki, bir ağacın ərsəyə gətirilməsi üç, dörd, bəzən isə beş il davam edir.

Onu da əlavə edək ki, Azərbaycanın digər regionları ilə müqayisədə Naxçıvanın sərt təbiəti ağac böyüdüb ərsəyə gətirilməsində müəyyən çətinliklər yaradır, o zaman məsələ hər birimiz üçün aydın olur. Məsələn, ötən il yanvar ayının 1-nə olan məlumata görə, muxtar respublikada meyvə ağaclarını əhatə edən sahələr 4235 hektara çatdırılmışdır ki, bunun da 3143,4 hektarı barverən ağaclardır. Bu ilin yaz əkini mövsümündə isə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, muxtar respublika ərazisində 286,2 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmiş, 228 min ədəd ağac və bəzək kolları əkilmişdir. “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, dağlıq və orta dağlıq ərazilərdə meyvəçiliyin inkişaf etdirilməsi, həmin ərazilərin iqlim və torpaq xüsusiyyətlərinə uyğunlaşdırılmış ağacların, tinglərin yetişdirilməsi və yeni meyvə bağlarının salınması sahəsində nəzərdə tutulan tədbirlər də bu gün uğurla davam etdirilir. Dövlət proqramının icrasına uyğun olaraq, cari ilin birinci yarısında muxtar respublika ərazisində, ümumilikdə, 110 hektardan çox sahədə meyvə bağları salınmışdır. Artıq payız əkini mövsümü başlandığından ağac əkini işi yenidən vüsət almışdır. Elə ötən həftələrdə keçirilən iməciliklərdə minlərlə müxtəlif meyvə tingi və meşə ağacı əkilərək suvarılmışdır. Payızlıq ağac əkini muxtar respublikanın bütün rayonlarında həyata keçirilmişdir.

Muxtar respublikanın ildən-ilə genişlənən yaşıllıq sahələrini göz önünə gətirdikcə ən diqqətçəkən məqamlardan biri odur ki, qədim diyarımızda bu işlərin kütləviliyinə, eyni zamanda böyük sevgi ilə yanaşılmasına necə nail olunmuşdur? Yenə də unutmayaq ki, digər regionlardan fərqli olaraq söhbət Naxçıvanın yayın qızmar Günəşi altında qovrulan torpaqda, qışda isə qandonduran soyuqda ağacları yetişdirməkdən və qorumaqdan gedir. Yəqin ki, bir çoxları bunu inzibati metodların tətbiqi ilə əlaqələndirməyə çalışacaq. Ancaq düşünürük ki, bu, məsələyə ilk yanaşmadan doğan düşüncədir. Doğrudur, istənilən ən inkişaf etmiş ölkələrdə belə, idarəçiliyin əsas prinsipləri inzibati əsaslar üzərində qurulur. Məsələnin digər, həm də əsas tərəflərindən biri odur ki, hər hansı bir layihənin həyata keçirilməsində şəxsi nümunə praktik baxımdan daha çox effektiv olur. Bu amili dünyanın məşhur şəxsiyyətlərinin, o cümlədən ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətində daha çox görmüşük. Məhz buna görədir ki, Naxçıvanda yeni yaşıllıqların salınmasına, ağac əkininə yanaşmada əsl rəhbər nümunəsi ortaya qoyulub. Muxtar respublika rəhbərinin iştirakı ilə keçirilən bütün iməciliklərdə şəxsi nümunə göstərməsi – ağac əkməsi, böyüyəcək ağacların hər birinə əsl nəvaziş göstərərək, ümumilikdə, ekologiyaya sərhədsiz sevgi nümayiş etdirməsi artıq bu diyarın sakinlərində iməciliklərə kütləvi, həm də, necə deyərlər, səfərbər yanaşma tərzinin formalaşmasına səbəb olub. Bu gün muxtar respublikada hansı dövlət qurumunda çalışmasından asılı olmayaraq, hər kəsin bu yaşıllaşdırma tədbirlərində əməyi var. Ən əsası isə bu qədim diyarda ağac əkmək, ona qulluq etmək heç zaman aksiya və kampaniya xarakteri daşımadı, görülən işlərin tərkib hissəsinə çevrildi.

Təbii ki, ağac əkmək, sadəcə, bir prosesi ilə məhdudlaşmır. Ağacların qorunması, onlara vaxtlı-vaxtında aqrotexniki qulluq göstərilməsi bu işin başlıca xüsusiyyətlərindəndir. Xüsusilə muxtar respublikada suvarma sistemlərinin təkmilləşdirilməsi, yaşıllıq sahələrinə yeni su xətlərinin çəkilişi bu sahənin inkişafında mühüm rolu olan tədbirlərdəndir. Ötən illər ərzində əldə edilmiş təcrübə indiyədək heç ağac əkilməyən ərazilərin belə yaşıllaşdırılmasına imkan verir. Bunun gerçək nümunəsinin hər il şahidi oluruq. Ancaq məsələnin digər tərəfi ondan ibarətdir ki, ağac əkmək həm də çox savab işlərdən sayılır. İslam dinində ağac əkməyin savab iş olduğu barədə kifayət qədər hədislər var. Məsələn, Yer üzünün son Peyğəmbəri (s) buyurur: “Əgər qiyamət günü gəlib çatsa və sizlərdən birinizin əlində bir şitil olsa, qalxıb onu əkməyi bacararsa, bu işi yerinə yetirsin”. Və yaxud Məhəmməd Peyğəmbər (s) digər bir hədisdə belə buyurur: “Meyvə ağacı əkən elə bir kəs olmayıb ki, Allah-Taala o ağacın verdiyi meyvələr qədər ona savab yazmasın”. Daha bir hədisdə deyilir: “İşlərin arasında heç bir iş əkinçilik qədər Allah yanında sevimli deyil və Allah-Taala dərzi olan İdrisdən (ə) başqa, elə bir Peyğəmbər göndərməmişdir ki, əkinçiliklə məşğul olmasın”.

*Bəli, ən savab işlərdən sayılan ağac əkməyin faydaları çoxdur. İstər dini, istər iqtisadi, istər tibbi, istərsə də ekoloji baxımdan yaşıllıqların çox böyük əhəmiyyəti var. Unutmayaq ki, Naxçıvanın intibah tarixinin yaşıl səhifələrinə yazılan bu savab işlər, həm də gələcəyimizə qoyulan ekoloji sərmayədir.*

**✍ Səbuhi HƏSƏNOV**

# Beynəlxalq tələbə-gənclər həftəsinin qalibləri mükafatlandırılıb



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində təşkil edilən təltifetmə mərasimində, ilk olaraq, qonaqlara beynəlxalq tələbə-gənclər həftəsi ilə bağlı məlumat verilib. Ardınca ötən həftə ərzində keçirilən yarışların qaliblərinə mükafatlar təqdim olunub. Mükafatları qaliblərə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev təqdim edib.

10-17 noyabr – beynəlxalq tələbə-gənclər həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən yarışlara yekun vurulub. Noyabrın 17-də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışların qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Qeyd edək ki, beynəlxalq tələbə-gənclər həftəsində badminton, şahmat, voleybol idman növləri üzrə yarışlarla yanaşı, şən və hazırcavablar klubları arasında müsabiqə, intellektual oyun, “Müasir Azərbaycanın gəncliyi” adlı rəsm müsabiqəsi təşkil olunub.

# Gənc əsgərlərin andiçmə mərasimi olub

***Noyabrın 16-da Əlahiddə Ümumqoşun Ordusunun “N” hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***



Əvvəlcə hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib, sonra gənc əsgərlərin andiçmə mərasimi başlanıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra hərbi hissənin komandiri, polkovnik-leytenant Aşur Mirzəyev çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılan hər bir vətəndaş döyüş bayrağı altında əlində silah dayanaraq Vətənə, öz xalqına sədaqətli olacağı barədə təntənəli surətdə and içir. Hərbi and içən əsgər təntənəli surətdə vəd edir ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanını və canını əsirgəməyəcəkdir.

Əsgər Xəyal Səmədzadə hərbi and içən əsgərlər adından çıxış edərək bundan sonra da Vətənə sədaqətlə xidmət edəcəklərinə, verilən əmr və tapşırıqları vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Valideyn Vidadi Abbasov bu günün onlarda böyük qürur hissi doğurduğunu bildirib, Vətənin müdafiəçilərinə uğurlar arzulayıb.

Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Elşad Həsənov Azərbaycan əsgərlərinin göstərəcəyi şücaətin hələ qabaqda olduğunu deyib, başı üzərində üçrəngli bayrağın dalğalandığı bu xalqın mərd övladları ilə hər zaman fəxr edəcəklərini söyləyib.

Çıxış edənlər hərbi andı qəbul edən gənc əsgərləri təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıblar.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

***

Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında da gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Mərasimdə taqımlar şəklində düzülmüş əsgərlər əllərini silahın üzərinə qoyaraq Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarına şərəflə əməl edəcəklərinə and içiblər.

Andiçmə mərasimində komandirlərdən baş leytenant Röyal Quliyevin, leytenant Teymur Əsgərovun, əsgərlərdən Fərid İsmayılzadənin, Valeh Bağırovun, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigarın, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərovun, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanovun və valideyn Səbuhi Əliyevin çıxışları olub.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, polkovnik Hikmət Kərimov bu gün and içən gənc əsgərlərin nümunəvi xidmət edəcəklərinə, hərbi hissənin adını yüksək tutaraq əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə, bir xilasedici kimi baş verə biləcək fövqəladə hallar zamanı insanların xilas edilməsində əllərindən gələni əsirgəməyəcəklərinə əmin olduğunu bildirib.

Sonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, alayın şəxsi heyətinin tribuna önündən təntənəli keçidi olub.

**Xəbərlər şöbəsi**



# Vətənpərvərliyin bayraq zirvəsi...

***Vətənpərvərlik elə ali duyğudur ki, bu duyğu insanı zirvələrə, səmalara yüksəldir, ona qəhrəmanlıq, fədakarlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətə, dövlətçiliyə bağlılıq, yurda sevgi, milli hədəflərə inam aşılayır. Vətənə sədaqət ən çətin anlarda belə, adamların qüvvələrini azadlıq uğrunda mübarizəyə səfərbər edir. Vətən sevgisi, yurd təəssübü gənc nəslin milli mənlik şüurunun inkişafında əsas aspektləri müəyyənləşdirir.***

İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Məhz ona görə də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".***

Tarixə nəzər yetirdikdə bir daha görürük ki, vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Hüseyn xan Naxçıvanski, Cəmşid Naxçıvanski, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Həzi Aslanov, Mübariz İbrahimov, Fərid Əhmədov kimi sərkərdələrimiz, igidlərimiz bugünkü nəslə nümunə olublar. Əsrlərin o üzündən gələn bir deyim də var ki, müdrik kəlam kimi hər zaman diqqətimizi cəlb edir: "Torpağı qoruyarsan, Vətən olar, qorumazsan, kəfən".

İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil prosesində, əmək prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə bilavasitə Vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi yalnız özbaşına axınla kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunanda müsbət nəticə əldə edilir. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə yüksək əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar nizam-intizamlı, savadlı olmalı, Vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, Vətəni sevməlidirlər.

Ekspertlər belə hesab edirlər ki, mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara – böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətləri uyğun qiymətləndirilməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə, vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir.

Burada xalqımızın tarixinə "Qanlı şənbə" kimi daxil olmuş 20 Yanvar hadisələrini xatırlamaq vacibdir. Şər imperiyası milli hərəkatı, milli şüuru 70 il ərzində amansızlıqla boğmuşdu. Ancaq Azərbaycan xalqı sübut etdi ki, onun milli qüruru sınmayıb. O vaxt Bakıya qoşun yeridilməsini fürsət bilən ermənipərəst qəsbkarları Naxçıvan Muxtar Respublikasını işğal etmək üçün hücum planını işə saldılar. Ancaq qəhrəman naxçıvanlılar yumruq kimi birləşərək düşmənə layiqli cavab verdilər. İndi azadlıq aşiqlərinin uyuduğu Bakının Dağüstü parkındakı və Naxçıvandakı Şəhidlər xiyabanları xalqımızın ziyarətgahına, and yerinə çevrilibdir.

Tarixin ibrət dərsləri unudulmur; qanlar bahasına qazanılanların qədrini bilməyə, Vətəni göz bəbəyi kimi qorumağa səsləyir, bu yolda can qurban etməyə ürəkləndirir. Bu mənada gənclərin vətənpərvərlik tərbiyəsində dövlət rəmzlərinin təbliği mühüm əhəmiyyətə malikdir. Bir çox ölkələrdə bayrağa, gerbə və himnə, milli bayramlara hörmət hisslərinin möhkəmləndirilməsi vasitəsilə gənclərdə vətənpərvərlik amalının formalaşdırılması üçün məqsədyönlü iş aparılır. Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə əsaslı işlər görülür. Naxçıvan şəhərinin ən yüksək məkanında Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması buna bariz nümunədir.

Tarixi həqiqət ondan ibarətdir ki, hər xalqa ən ali dəyərlərini özündə ehtiva edən bayrağını dalğalandıra bilmək nəsib olmur. Bu baxımdan bizim xalqımız xoşbəxt xalqdır. Dövlətçilik ənənələri hələ qədim dövrlərdə mövcud olmuş etnik-siyasi özünütəşkil mədəniyyətinə söykənən Azərbaycan xalqının bu gün müstəqil bayrağa malik olması da onun xoşbəxtliyi və həm də mənəvi haqqıdır. Çünki o bayrağı yenidən dalğalandıra bilmək səadəti xalqımızın azadlığa bəslədiyi sevgidən qaynaqlanan əzmkar və davamlı mübarizəsi ilə çoxsaylı qurbanlar bahasına gerçəkliyə dönüşübdür.

Bayrağımızı hər bir azərbaycanlının qürur mənbəyinə çevirən də bu müqəddəs rəmzin – xalqımızın mübariz ruhunun simvolu olmasıdır. Bu mübariz ruh Azərbaycan xalqının yenilməz mənəviyyatının bütün tarixi dövrlərdə zühur edən ən canlı və ən şanlı təcəssümüdür. Bu ruh xalqımızın tarixi boyunca nəsildən nəslə ötürülmüş, zaman-zaman öz qüdrətini daha da artırmışdır. Məhz mübarizlik və yenilməzlik ruhu sayəsində tarixin bütün dönəmlərində Azərbaycan dövlətçiliyi öz kökləri ilə keçmişinə bağlı olmuş, tarixi ilə birgə yaşamağı, əski dövrü ilə yeni dövrünün vəhdətini yaratmağı bacarmışdır. Ona görə də Azərbaycan dövlətçiliyi milli siyasət və ideologiyanın ən mühüm simvolu olan tarixi bayraq ənənəsində də özünün maddi, mənəvi və siyasi mədəniyyətinin əsas özəlliklərini, başlıcası isə ölməz milli ruhunu bu gün də yaşatmaqdadır.

Böyük şairimiz Bəxtiyar Vahabzadənin "Bayraq" şerində deyildiyi kimi:

*Üçrəngli bayrağın kölgəsində mən*
*Qaraca torpağı Vətən görmüşəm.*
*Zəfər güllərini dövri-qədimdən*
*Bayraq işığında bitən görmüşəm.*
*Bayraq mənliyimdir, bayraq kimliyim,*
*Bayraq – öz yurduma öz hakimliyim.*

Bayrağımız milli vəhdətimizin rəmzidir. Bu vəhdət bizim üçrəngli bayrağımızı daha uca zirvələrə qaldıracaq və onu Qarabağa, Şuşaya və Xankəndinə daşıyacaqdır. Azərbaycanın əbədi varlığını təcəssüm etdirən bayrağımız bir daha nəinki enməyəcək, müstəqilliyimizin və tərəqqimizin ulduzu kimi daim parlayacaq!

**Rauf ƏLİYEV**

## Gömrükçülərin futzal turnirinə yekun vurulub

***Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə və Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 23-cü ildönümünə həsr olunan turnirdə 6 komanda mübarizə aparıb. Yarış Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilib.***

Turnir üç turdan ibarət olub. Oyunlar dairəvi sistem üzrə keçirilib. Əsasən, dörd komandanın çempionluq şansı yüksək qiymətləndirilsə də, şansı reallığa çevirən tərəf "Sədərək" komandası olub.

Çempionluğun taleyinə məhz son qarşılaşmada aydınlıq gəlib. Həlledici duelə qədər bütün görüşlərdə maksimum nəticə göstərən "Sədərək" və "Naxçıvan Şəhər Gömrük İdarəsi" komandaları noyabrın 15-də turnirin qalibi adına aydınlıq gətirmək üçün meydana çıxıblar. Ümumilikdə, doqquz qolun vurulduğu qarşılaşmada Sədərək Gömrük İdarəsinin təmsilçiləri minimal hesablı üstünlük əldə ediblər. Bu oyunda dörd dəfə fərqlənməklə aktivindəki qolların sayını 19-a çatdıran Aynar İsmayılov son çempionun titulu öz əlində saxlamasında əsas pay sahibi olub.

Eyni xala malik (7 xal) "Şahtaxtı" və "Komitə" komandaları isə müvafiq olaraq üçüncü-dördüncü yerləri bölüşüblər.

Komandaların mükafatlandırılması mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov ölkəmizdə, o cümlədən muxtar respublikamızda idmanın inkişafına və kütləviliyinin artırılmasına göstərilən yüksək dövlət qayğısından danışıb. Gömrükçülər arasında idmanı təbliğ etmək, onların fiziki sağlamlığının qayğısına qalmaq məqsədilə keçirilən yarışların ənənəvi xarakter aldığını qeyd edən komitə sədri idmanın gömrük əməkdaşları arasında qarşılıqlı münasibətlərin inkişafına müsbət təsir göstərdiyini, onlarda qələbəyə inam, mübarizlik hisslərini artırdığını diqqətə çatdırıb.

Sonra komandaların və turnirdə fərqlənən idmançıların mükafatlandırılması mərasimi olub. "Sədərək" komandası turnirin keçici kuboku ilə yanaşı, kubok, diplom və medallarla təltif olunub. Turnirin "ən yaxşı müdafiəçi"si, "ən yaxşı qapıçı"sı, "ən məhsuldar oyunçu"su, o cümlədən oyunları idarə edən hakimlər də mükafatlandırılıblar.

Sonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

## Payız mövsümünün dərin tibbi yoxlamaları başa çatıb

Naxçıvan şəhərinin ümumtəhsil müəssisələrinin şagirdləri arasında hər il keçirilən payız mövsümünün dərin tibbi yoxlamaları başa çatıb. Profilaktika xarakteri daşıyan yoxlamalara bu il oktyabrın 13-də start verilib. Ötən müddətdə Naxçıvan şəhərində 20 tam orta məktəbin 10 min 262-i şagirdi dərin tibbi yoxlamalara cəlb olunub. Onlardan 1185 şagird göz, 968 şagird stomatoloji, 280 şagird nevroloji, 88 şagird cərrahi, 35 şagird dəri-zöhrəvi, 227 şagird LOR, 43 şagird endokrinoloji, 54 şagird isə digər xəstəliklərin ilkin əlamətlərinə görə əlavə və təkrar müayinələr üçün xəstəxanaya – stasionara dəvət edilib. Ehtiyac olan hallarda bəzi uşaqların ixtisaslı mütəxəssis həkimlər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq) tərəfindən konsultasiyası, stasionar müalicəsi təşkil olunub.

Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının LOR, oftalmoloq, nevropatoloq, cərrah, pediatr, stomatoloq, dermatoloq, ortopedlərdən təşkil olunmuş həkim briqadası tərəfindən Naxçıvan şəhərində həyata keçirilən bu tədbirlə yanaşı, səhiyyə maarifi işi də aparılıb. Valideyn və müəllimlər şagirdlərin sağlamlığına göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildiriblər.

## Naxçıvan şəhər ümumtəhsil məktəblərində mantu sınağı

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, bu il noyabrın 3-dən V-XI siniflərdə təhsil alan məktəblilər arasında vərəmin erkən aşkar edilməsi məqsədilə kütləvi tuberkulin diaqnostikası – mantu sınaqlarının aparılmasına başlanılıb. Bu sınaqları icra edəcək pediatr, epidemioloq və vaksinatorlardan ibarət xüsusi briqadaların, orta tibb işçilərinin hazırlığı məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində və rayon mərkəzi xəstəxanalarında seminar-treninqlər keçirilib. Bu tədbirlərdə məktəblərin tibb işçiləri tərəfindən uşaq və yeniyetmələr arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar edilib vaxtında müayinə və müalicəyə cəlb edilməsinin mahiyyəti və əhəmiyyəti barədə məlumat verilib. Aseptik qaydalara ciddi əməl olunmaqla məktəblərin tibb məntəqələri tam hazır vəziyyətə gətirilib. Bir həkim və 2 vaksinatordan ibarət xüsusi briqadalar lazımi sınaq, dərman preparatları ilə təchiz olunublar.

Naxçıvan şəhərindəki tam orta məktəblərdə kütləvi tuberkulin diaqnostikası Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Poliklinika şöbəsinin nəzarəti altında ərazi prinsipi üzrə həkim və vaksinatorlardan ibarət 16 xüsusi briqada tərəfindən icra olunub. V-XI siniflərdə təhsil alan 6017 məktəblinin cəlb edildiyi sınaq 2 mərhələdə keçirilib. Aksiyanın sonunda reaksiyası şübhəli olan uşaqlar Ağciyər Xəstəlikləri Dispanserində dərin ftiziatr müayinəsinə cəlb ediliblər. Virajlı, yəni ilk dəfə vərəm mikrobakteriyaları ilə yoluxmuş uşaqlar xüsusi nəzarətə götürülərək profilaktik məqsədlə bir neçə ay pulsuz dərman preparatları ilə təmin olunacaqlar.

Rayonlarda isə mantu sınaqları gigiyena və epidemiologiya mərkəzləri və rayon mərkəzi xəstəxanalarının nəzarəti altında həyata keçirilir. Mantu sınaqları və dərin tibbi yoxlamalar, eləcə də uşaqların icbari dispanserizasiyası ay ərzində davam etdiriləcək.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*İtmişdir*

M.Nəcəfov adına Culfa Peşə Məktəbi tərəfindən Məmmədov Vüsal Rövşən oğluna verilmiş diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 967